AĞDAĞ® Direk üzlük

Məhsul haqqında

Gips əsaslı, məhsulun istifadə imkanlarını artıran qatqılarla zəngin, yüksək yapışma qabiliyyətinə malik, incə, ağ rəngli, son qat üzlük suvaq qarışığıdır.
AZS 046 (TS 370) standartına uyğundur.

İstifadə sahələri

Bu məhsuldan:

• binaların daxilində tavan və divarların suvanmasında son qat üzlük suvağı kimi;

• beton, qazobeton, kərpic, briket (kər-pic şəklində preslənmiş kömür, torf, filiz), mişar daşı, arakəsmə gips tavaları və digər hörgü materiallarından tikilmiş, AĞDAĞ Astarla və ya digər oxşar məhsulla suvanmış, yaxud gips lövhələrin (tavan və divar) üzərində incə suvaq kimi istifadə olunur.

Üstünlükləri

• AĞDAĞ DİREK üzlük düz, hamar, qüsursuz və parlaq səth əmələ gətirir;

• tozlanma ehtimalı yoxdur;

• ekoloji cəhətdən təmizdir;

• nsan orqanizmi üçün zərərsizdir;

• rahat hazırlanır və tətbiq olunur;

• PVA yapışqanları və digər əlavələr qatılmır;

• istifadə zamanı yerə tökülmür, ustaya estetik zövq verir;

• çatlamır;

• möhkəm və elastikdir.

İstifadə qaydaları

Səthin hazırlanması. İstifadə olunacaq səthlərin sağlam, quru, təmiz və ölçülərinin düzgün olmasına diqqət etməli, səth yapışma müqavimətini zəiflədən hər növ yağ və parafin qalıqlarından tamamilə təmizlənməlidir. AĞDAĞ DİREK üzlük çəkilməzdən əvvəl səth AĞDAĞ Astarla və ya digər oxşar məhsulla suvanmalıdır. Eyni zamanda istifadə olunacaq səth əvvəlcədən su və ya **ROKOL BİNDER** astarla və ya digər oxşar məhsulla nəmləndirilməlidir.

Qarışığın hazırlanması. 10 kq-lıq AĞDAĞ DİREK üzlük məhsulunu 6,5-7,0 litr suya səpin və 3-4 dəqiqə gözlədikdən sonra, suda tam qarışana kimi xüsusi qarışdırıcı və ya əl aləti ilə qarışdırın. AĞDAĞ DİREK üzlük qarışıq suda tam qarışdıqdan sonra ona yenidən əlavə olaraq quru qarışıq və su qatmayın.

Tətbiqi. Hazır AĞDAĞ DİREK üzlük qarışığını AĞDAĞ Astarla və ya digər oxşar məhsulla suvanmış divar səthinə və ya tavana mala ilə çəkin. Hazırlanmış qarışığı 130-150 dəqiqə ərzində işlədin. İstifadə müddəti keçmiş və ya qabıq bağlamış qarışıq istifadəyə yararsızdır.

Tövsiyələr. AĞDAĞ DİREK üzlük qarışıq istifadə olunarkən mühitin və səthin temperaturu minimum +5^{0}C olmalıdır. İstifadə olunan mühitin temperaturu +5^{0}C-dən aşağı və +30^{0}C-dən yuxarıdırsa, lazımi temperatur təmin edilməlidir. İsti (+30^{0}C-dən yuxarı), yağışlı və küləkli havalarda istifadə olunmamalıdır. Qarışığın hazırlandığı bidon və avadanlıqlar təmiz olmalıdır. Çirklənmiş qab və alətlər qarışığın istifadə müddətini qısaldaraq məhsulun keyfiyyətinə mənfi təsir göstərə bilər. Avadanlıq və alətləri istifadədən sonra dərhal su ilə yuyub təmizləmək tövsiyə olunur. Tətbiq zamanı polad malanın yaratdığı izlərin qalmamasına diqqət yetirilməlidir.

Texniki göstəricilər

Rəngi	ağ
İstifadə temperaturu	+5^0 C – +30^0 C
Minimum tətbiq qalınlığı	1 mm
İstifadə müddəti	130-150 dəqiqə
Donma (bərkimə) müddəti	300-320 dəqiqə
Su / gips nisbəti	6,5-7,0 litr su/10 kq gips
Quruma müddəti	təqribən 2 gün
Möhkəmlik həddi: • *əyilmədə* • *sıxılmada*	 2,4 MPa 4,7 MPa
• **Quru halda məhsulun tökmə sıxlığı** • **İstifadəyə hazır məhlulun sıxlığı**	0,72 kq/ lit 1,5 kq/ litr
Səthin müqaviməti	57 Shore D
Qablaşdırma	2 və ya 3 qatı kraft kağızı və 1 qatı polietilendən ibarət 25 kq-lıq kisələrdə

Sərfiyyat

AĞDAĞ DİREK üzlük qarışığından istifadə zamanı 1 m^2 səthdə 1 mm qalınlığında hamar və düzgün səth əldə etmək üçün 1 kq məhsul sərf olunur. 1 kisə AĞDAĞ DİREK üzlük qarışığı 30 m^2 hamar səth almaq üçün kifayət edir.

Saxlama müddəti və qaydası

Paketlənmiş kisələr döşəməyə toxunmamaq şərti ilə qapalı yerlərdə, taxta altlıqlar üzərində, bir-birinin üzərində maksimum 10 ədəd olmaqla, quru anbarlarda 6 ay saxlanıla bilər.

Xəbərdarlıqlar

• istifadə olunan suyun və qabların təmiz olmasına xüsusi diqqət edin;

• məhsula sudan başqa heç bir maddə qatmayın;

• PVA qatmayın;

• yuxarıdakı göstəricilər +23^{0}C±2^{0}C temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

Zəmanət və texniki dəstək

• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;

• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir.

• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A" şirkəti məsuliyyət daşımır;

• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;

• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!